İki sahil.- 2019.- 14 dekabr.-S.-20

# HƏSRƏTLİ NƏĞMƏLƏRİN HƏSRƏTİ

... Həsrətin kökü kəsilmiş şeirləri çox kövrəkdi.

O qədər kövrək və incədi ki, oxuyanda ehtiyat edirsən, deyəndə ehtiyat edirsən, poetik düşüncənin qatlarında yatan mətləblərə və məqamlara varanda, onları məntiqi təfəkkürlə araşdıranda, üşənirsən.

Həsrətin şeirlərinin əksəriyyətində açıq mətnlə nəzərə çarpdırılan, onun misralarının arasından xırda, səssiz bir kənd çeşməsi kimi süzülüb gedən bir həsrət ruhu var. Bu ruh onun şeirlərinin tanınma sənədidir, mənsubiyyət bəlgəsidir.




*Ömür vəfasız oldu,*
*Yara şəfasız oldu,*
*Dərdi dəvasız oldu ...*

deyən 38 yaşlı bir insanın ruhunu, həyatını, həyəcanını özündə ehtiva edən qəlb çırpıntılarının, həyəcan təbilinin, ilahi bir verginin nəticəsi kimi şeirlərinə hopması, klassik sufi cərəyanının daşıyıcılarından biri olan məşhur şairin " Bu dünya qalmalı yer deyil, ey dil, səfər eylə!" qənaəti, fəlsəfəsi ilə səsləşmirmi?

Həsrət bunları nə vaxt eşitdi, nə vaxt duydu, harda rastlaşdı -bilinmir. Həsrət Əliyev (Çaylı) akademik təhsilli, ömrünü-gününü ədəbiyyata, ya da elmə həsr etmiş biri deyildi. Ali təhsil almamışdı, heç texnikum da bitirməmişdi. Şəkinin Çay Qaraqoyunlu kəndində doğulmuşdu, qonşu Turan qəsəbəsində sıravi polis nəfəri işləyirdi.

Tarixdə mükəmməl təhsil almamış, lakin dövrünün, zəmanəsinin salnaməçisinə, ziyalısına çevrilmiş insanlar azmı olub həyatda? Qədim yunan şairi Homerdən tutmuş Süleyman Stalskiyə, Aşıq Ələsgərdən tutmuş Molla Cüməyə qədər - bir çox poetik təfəkkür sahiblərinin təhsili, savadı olmayıb, şeirləri, nəğmələri, əsərləri müasirləri tərəfindən qələmə alınaraq bizim günlərə qədər gəlib çatıb...

Həsrəti onlarla müqayisə etməkdən uzağıq. Amma ən azından, Vətənə, torpağa bağlılığı ilə, bu yurdun hər gülünü, çiçəyini, daşını, torpağını cənnət bilməsi ilə onlara ruhən yaxın idi. Onun üçün Qarabağ da, Xocalı da, işğal altında inləyən digər torpaqlarımız da xırda təpələrin qoynuna sığınmış, sinəsində min bir tarix yatan Çay Qaraqoyunlu kəndi qədər doğma və unudulmaz idi.

*Kəsildi ümidi, kəsildi yolu,*
*Əsirə çevrildi doğma Xocalı,*
*Şaxtalı gecəsi məşəqqət dolu*
*Səpildi yollara gənci, qocalı*

...İnsan doğulan andan həyatı boyu ölümə doğru gedir. Qocası da, cavanı da, qızı da, oğlanı da. Ruslar demişkən, ömür sürmək bir tarla keçmək deyil ha , bu həyatın atkeçməz yolu-yolağası, nəfəs kəsən imtahanları, enişi-yoxuşu, dağı-təpəsi,çayı - dərəsi var.

Amma insanların bir qismi bu dolaylardan keçə bilmir, taleyin gərdişindən yarı yolda bu dünya ilə halallaşır. Buna çoxları "vaxtsız ölüm" deyir. Ölümün vaxtlısı-vaxtsızı olmur ki. Hər bir insan bu dünyada öz missiyasını başa vurduqdan sonra haqq dünyasına qovuşur...

Həsrət bu dünyada öz insani missiyasını başa vurdumu-vurmadımı -bunu Uca Yaradan, bir də Həsrət özü bilir.

Amma poetik missiyasını tamamlaya bilmədi- bu, bir həqiqətdir. Şairlər, poetik təbli insanlar tərki-dünya olurlar - ta Nəsimidən üzübəri ölümdən qorxan, bu dünyadan beşəlli yapışan bir şair gördünüzmü? " Göylər məni çağırır", "Mən neyləyim bu dünyada tək-tənha?", "Bəlkə bu yerlərə bir də gəlmədim, Duman salamat qal, qağ salamat qal" və sair...

Həsrət cəmi 40 il yaşadı. Bu 40 ildə özündən sonra 4 övlad, valideynlərinə, dostlarına, balalarına, Vətənə, onun unudulmaz təbiətinə və guşələrinə həsr edilmiş 2 şeir kitabı və çap olunmamış xeyli əlyazması qoyub getdi. 40 yaş insanın, ələlxüsus, təbli, içi dolu insanın çiçəklənmə dövrüdür. Onun həyatı, həsrətdən qurtulacaq şeirləri, optimist ovqatlı yaradıcılığı hələ irəlidə idi... Olmadı.. Bu dünyada, görünür, alovlu, atəşli arzulardan, insanı irəliyə daşıyacaq ümidlərdən başqa bir qismət, bəxt anlayışı, bir alın yazısı da varmış...

...Sonuncu dəfə onunla 5-6 il əvvəl Sarıca polis bölməsinin qarşısında görüşmüşdük. İndi haqqın dərgahına qovuşmuş unudulmaz qardaşım Mənsurla birlikdə işləyirdi. Bakıdan gəlmişdim, qardaşımı kənddəki evimizə aparmaq istəyirdim. Pəncərədən gördü, gəlib səmimi şəkildə görüşdü. Maşına əyləşmək istəyəndə, məni kənara çəkib pıçıltı ilə, utana-utana dedi:

- Dayı, bir- iki şeirim var, göndərsəm, baxarsan?
- Baxaram, niyə baxmıram, - deyib maşına əyləşdim.

Göndərmədi. Mən də bu söhbəti unutdum.
Görünür, bu da qismət deyilmiş.
Vaxtı indi imiş...

✍ **Tofiq Yusifov,**
*filologiya üzrə fəlsəfə doktoru, professor,*
*Avropa Təbiət Elmləri Akademiyasının akademiki*